


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 51 (24.188)**

***18 mart 2023-cü il, şənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 30 qəpik**


## E.N.Məmmədovun Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Elşad Novruz oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ordubad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 mart 2023-cü il*

## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhvali-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan Novruz bayramı əcdadlarımızın indiki nəsillərə müqəddəs yadigarıdır. Zamanın bütün sınaqlarından çıxaraq əsrlərin yaddaşında silinməz izlər qoyan bu el bayramı uzaq dövrlərdən bəri xalqımızın mənəvi dünyasının dərinliklərinə nüfuz etmiş, ənənəvi dəyərlərimizin təşəkkülündə mühüm rol oynamışdır. Ulu babalarımızın zəngin daxili aləmi, müdrik həyat fəlsəfəsi və gələcəklə bağlı işıqlı arzuları bahar bayramında dolğun təcəssümünü tapmışdır.

Ülvi bəşəri hisslərin daşıyıcısına çevrilən, yeniləşdirici gücə malik Novruz bayramı bu gün də insanlar arasında səmimi münasibətlərə yol açaraq dostluq, mərhəmət və xeyirxahlıq duyğularını möhkəmləndirir, cəmiyyətimizin vahid məfkurə ətrafında inkişafının ahəngdarlığını təmin edir. Milli varlığımızın ayrılmaz parçası saydığımız və yad təsirlərdən qoruduğumuz Novruz ənənələri mənəvi sərvətlərimizə hörmətlə yanaşmağımızın yüksək ifadəsi, eyni zamanda bəşər mədəniyyəti xəzinəsinə qiymətli töhfəmizdir.

Xatirəsini daim minnətdarlıqla andığımız şəhidlərimizin öz canları, qanları bahasına azadlıq bəxş etdikləri əzəli torpaqlarımızda gerçəkləşdirilən irimiqyaslı layihələr, geniş vüsət alan quruculuq işləri və əhalimizin doğma yurdlara qayıdışı ilə yenidən canlanan həyat yaz fəslinin Odlar diyarına builki gəlişinə xüsusi ab-hava qatır və rəmzi məna qazandırır.

Ölkəmizin hüdudlarından uzaqlarda yaşayan, qəlbi Vətən sevgisi ilə döyünən və baharı bizimlə birgə qarşılayan soydaşlarımıza bayram salamlarımı yetirirəm.

Bu əlamətdar bayramın hər evə, hər ocağa yeni sevinc, bol ruzi-bərəkət və firavanlıq gətirməsini arzu edirəm.

Novruz bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 17 mart 2023-cü il*

## Tarixi ənənələrə sədaqətdən doğan qardaşlıq nümunəsi – Azərbaycan-Türkiyə...

*Tarixin bütün səhifələrini vərəqləsək, gəlmiş-keçmiş, dünən-bu gün yaşayan, var olan hansısa xalqların, millətlərin, ölkələrin Azərbaycan və Türkiyə qədər bir-birinin dərdinə ürəkdən yanmasının, şad gününə bütün qəlbi ilə sevinməsinin şahidi ola bilmərik. İllərin sınağından keçmiş, təcrübələrdən, yaşanmışlardan doğan bu dostluq, qardaşlıq ən mükəmməl ifadəsini isə, heç şübhəsiz, Türk dünyasının iki böyük lideri Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" və Ümummilli Lider Heydər Əliyevin* ***"Bir millət, iki dövlət"*** *kəlamlarında tapır. Müasir dövr tariximizdə bu doğmalıq, yaxınlıq münasibətləri ölkə prezidentləri cənab İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə bütün sahələrdə güclü, etibarlı tərəfdaşlıq, sıx əməkdaşlıq əlaqələri çərçivəsində, perspektivli gələcək, inamlı sabahlar naminə ən yüksək səviyyədə yaşadılır, inkişaf etdirilir. Prezident cənab İlham Əliyevin Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının sammitindəki çıxışı zamanı* ***"Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam"****, torpaqlarımızın erməni işğalı dövründə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir" bəyanatları milliliyə, soykökə bağlılığın, dahi sələflərin tarixi ənənələrinə layiqli xələflərin sədaqətinin müfəssəl inikasıdır...*

Müxtəlif dövrlərdə hər iki ölkə liderləri tərəfindən yüksək kürsülərdən səsləndirilən siyasi bəyanatlarla yanaşı, çox uzağa getmədən yaxın keçmişdə baş verən bir neçə hadisəni, faktı incələmək yetər ki, Xalq şairi Bəxtiyar Vahabzadənin təbirincə desək, ayı bir, ili bir, eşqi bir, yolu bir olan Azərbaycan və Türkiyənin birliyini, həmrəyliyini dolğun şəkildə ifadə etmək mümkün olsun. Nümunə üçün 2016-cı il iyunun 15-də qardaş ölkədə hakimiyyət çevrilişinə cəhdi, 2020-ci ildə ədalətin bərpası naminə Azərbaycanın 44 günlük Vətən müharibəsini, 2021-ci ildə baş verən meşə yanğınlarını və ən nəhayət, 2023-cü il fevralın 6-da Türkiyənin 10 vilayətində baş verən güclü zəlzələləri göstərmək olar. Məhz sadalanan bu və digər bütün hadisələrin, çətin məqamların öhdəsindən bu iki qardaş ölkə çiyin-çiyinə verərək alnıaçıq, üzüağ çıxmağı bacarıb...

Yazının əsas mövzusu kimi Türkiyədə yaşanan son məlum hadisə zamanı Azərbaycanın, xalqımızın göstərdiyi ənənəvi prinsipial mövqeyə, ortaya qoyduğu işlərə, fəaliyyətə diqqəti çəkmək istəyirəm. Bildiyimiz kimi, təbii fəlakətin baş verdiyi ilk andan etibarən ölkəmizin əsl qardaşlıq, dostluq münasibətinin, həmrəyliyinin göstəricisi kimi Prezident cənab İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişinə əsasən zəlzələ bölgəsinə ard-arda bir neçə çevik xilasetmə dəstəsi, tibbi heyət, yaralananların müayinə və müalicəsi məqsədilə səhra çadırları, tibbi ləvazimatlar, maddi yardımlar göndərildi. Dövlətimizlə yanaşı, xalqımız da bu ağır, çətin gündə türkiyəli qardaşlarını yalnız buraxmadı, ölkəmizin hər yerindən yüzlərlə, minlərlə insan əlindən gəldiyi qədər, könlündən qopanı ilə evsiz-eşiksiz qalanlara, dəstəyə ehtiyacı olanlara öz köməkliyini göstərməyə çalışdılar, könüllü gənclər zəlzələ bölgəsində xəsarət alanlara yardım məqsədilə qardaş ölkəyə yollanaraq orada öz mənəvi borclarını layiqincə yerinə yetirdilər.

Naxçıvan Muxtar Respublikasında da fevralın 7-dən etibarən Türkiyəyə hərtərəfli dəstək aksiyası keçirildi, muxtar respublikanın Bakıdakı Daimi Nümayəndəliyinin kollektivi, paytaxt Naxçıvan şəhərində, rayonlarda şəhid ailələri, qazilər, Vətən müharibəsi iştirakçıları, müxtəlif dövlət təşkilatlarının əməkdaşları, sakinlər, iş adamları, sahibkarlar yardım kampaniyalarına, humanitar aksiyaya canla-başla qoşuldu, səhiyyə ocaqları ehtiyac yarandıqda Türkiyədən olan yaralıların qəbulu, müalicə və müayinəsi üçün tam hazır vəziyyətə gətirildi. Zəlzələ bölgəsində əziyyətçəkən insanların köməyinə yetişəcək zəruri vasitələrlə, əsasən, qida, geyim, dərman, uşaq bezi, sadə yataq, generator, konteyner, səhra çadırları, istilik lampaları, yorğan dəstləri, xalçalar olmaqla Naxçıvan sahibkarlarına məxsus 52 TIR Türkiyəyə yola salındı.

Ümumilikdə, qardaş dəstəyi kimi ölkəmiz tərəfindən 669 xilasedici, 111 həkim, tibb və inzibati personal, 150 könüllü olmaqla, 930 nəfər Türkiyədə fəlakətin böyüməsinin qarşısının alınmasında, fəsadların aradan qaldırılmasında fəal iştirak etdi. 16 təyyarə, 448 TIR, 25 vaqonla 5320 ton humanitar yardım zəlzələ bölgəsinə çatdırıldı. Son açıqlamalara görə, 49 mindən çox insanın həyatını itirdiyi zəlzələnin törətdiyi dağıntıların altından Azərbaycan xilasediciləri tərəfindən 53 nəfər sağ çıxarıldı, 780 nəfərin cəsədi aidiyyəti üzrə təhvil verildi, səhiyyə personalımız 3 mindən artıq xəsarət alan vətəndaşa tibbi xidmət göstərdi. Bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına



köçürülmüşdür. Böyük dağıntı, çox sayda insan tələfatı ilə nəticələnən zəlzələ insanlıq baxımından yardımlaşmanın, paylaşmanın önəmini ortaya çıxarmaqla yanaşı, dünya siyasi sferasında hərəkətlənməyə, soyuq münasibətlərin qismən mülayimləşməsinə, buzların əriməsinə də yol açdı. Digər bir deyişlə qardaş ölkənin bu ağır günündə keçmişdə baş verən gərginlikləri unudub onun yanında olanlar da oldu, bu ağrılı-acılı məqamı öz şəxsi mənafeləri naminə fürsətə çevirməyə çalışanlar da. Dost dar gündə tanınar tandemini bütün dünyanın gözü önündə bir daha sübut edən Azərbaycandan fərqli olaraq Ermənistan barmaqla sayılacaq maşınla humanitar yardım adı altdında 1993-cü ildən bəri bağlı qalan quru sərhədinin açılması fürsətini yaxalayaraq bunu Türkiyə ilə diplomatik münasibətlərin qurulması istiqamətinə yönəltməyə çalışdı. Di gəl ki, hər fürsətdən sui-istifadə etməyə çalışan düşmən ölkənin bədxah insanları bu ağır məqamda da əsl simalarını gizlədə, rəzalət əməllərindən, şəxsi hərisliklərindən əl çəkə bilmədilər. Belə ki, axtarış işlərinə cəlb edilən bəzi erməni xilasedicilərin çox keçmədi, soyğunçuluqla məşğul olduqları üzə çıxdı, üzərindən zəlzələdə ölən insanların qızıl-zinət əşyaları aşkarlanan Arsen Qazaryan və Vahan Sürmalyan atalarının ənənələrinə sadiq qaldıqlarını sübut etməklə haqlı olaraq dəmir barmaqlıqlar arasına düşdülər. "Yalan ayaq açar, amma yeriməz", – deyiblər. Görünən odur ki, tarixboyu türklərə nifrət, kin qusan ermənilərin uydurma "soyqırımları" kimi, humanitar yardım adı ilə sırımağa çalışdıqları budəfəki yalançı "xeyirxahlıqları" da pas tutdu, yerimədi... Həqiqətin gözü kordur, onu bir müddət ört-basdır etmək olar, ancaq o, gec-tez mütləq üzə çıxır. Reallıq odur ki, düşmənin gizlətməyə çalışdığı bu məkrli, xain xarakter onun geninə işləyib artıq. Əslində, bu utancverici hərəkət heç cür təəccüb də doğurmur. Əli minlərlə günahsız insanın qanına batan ermənilərdən xeyirxah əməl gözləmək Qobi səhrasında Niaqara şəlaləsi arzulamaq kimi bir xəyaldır.

Doğru söyləyiblər ki, hər şeyin təzəsi, dostun köhnəsi. Bəli, baş verən son təbii fəlakətlər də bir daha göstərdi ki, eyni kökdən, eyni soydan gələn bu iki qardaş ölkənin – Türkiyə və Azərbaycanın insanları ulu babalarının tarixi dostluq ənənələrinə sadiqdir. Və şübhəsiz, bu sədaqətdən doğan həmrəylik, birlik, bərabərlik bir ananın arzuları, dilədikləri eyni olan iki ulu oğlunu amallarına, məqsədlərinə ən layiqli şəkildə çatdıracaq. Bunun yaxın gələcəkdə gerçəkləşəcəyinə Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının "Fəlakət-Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda Fövqəladə Zirvə görüşünün məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Türkiyədə keçirilməsi, dövlət başçımızın Ankara Sammitində zəlzələnin fəsadlarından, çoxsaylı insan tələfatından kədərləndiyini diqqətə çatdıraraq etdiyi dərinməzmunlu çıxış bir daha əminlik yaratdı: ***"Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaq. Əminəm ki, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaqdır. Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi. Eyni zamanda 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlmişdir. 2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanmışdır və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılmışdır".***

**Nail ƏSGƏROV**

## Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib





*Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən tədbirlərin davamı olaraq, martın 17-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.*

Konfransda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, tabe rayon (şəhər) prokurorluqlarının və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əməkdaşları, prokurorluğun veteranları, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin əməkdaşları və universitetin tələbələri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad edib.

Konfransın açılışında ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə çıxış edib.

Daha sonra Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru Yaşar Həsənov, prokurorluğun veteranı Ələddin Məmmədov, muxtar respublika prokurorluğunun şöbə rəisi Faiq Səfərov, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi, universitetin gənclər təşkilatının sədri Əziz Qasımovun Ümummilli Liderin prokurorluq orqanlarına diqqət və qayğısı, dövlətçiliyin qorunması, gənclər siyasəti, respublikamızın, o cümlədən Naxçıvan Muxtar Respublikasının bütün sahələrdə inkişafı sahəsində misilsiz xidmətləri barədə çıxışları dinlənilib.

Konfransın yekununda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin ideya müəllifi olduğu "Heydər Əliyev Salnaməsi – Qanun naminə" adlı film nümayiş etdirilib.

✍ **Səbuhi HƏSƏNOV**

## Ombudsman muxtar respublikanın rayonlarında vətəndaşları qəbul edib



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən insan hüquq və azadlıqlarının müdafiəsi, onların problemlərinin yerində öyrənilib həll edilməsi məqsədilə mart ayı ərzində ombudsman Günay Rzayeva tərəfindən Culfa, Şahbuz, Babək, Şərur, Ordubad, Kəngərli və Sədərək rayonlarında vətəndaşların qəbulu keçirilib.

Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilib, həlli mümkün olan müraciətlər dərhal həll edilib. Müvəkkilin ünvanına daxil olmuş müraciətlər üzrə 24 şikayət və 29 ərizə araşdırılması üçün icraata qəbul edilib.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində tədbir



Birgə hazırlanmış Tədbirlər Planına əsasən martın 17-də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun məsul əməkdaşlarının iştirakı ilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında keçirilmiş toplantıda Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə və struktur bölmələrinin hərbi qulluqçuları tərəfindən hərbi xidmətə çağırış proseslərinin müasir dövrün tələblərinə uyğun olaraq təşkili, Silahlı Qüvvələrin keyfiyyətlə komplektləşdirilməsi, normativ-hüquqi aktların tələbləri kimi aktual mövzulara dair mühazirələr dinlənilib.

Toplantıda təqdim edilən mövzular barədə konkret məsələlər təhlil edilib və qarşıda duran vəzifələr barədə tövsiyələr verilib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

***Xəbərlər şöbəsi***

## Ahıllar Evində Novruz şənliyi

Novruz bayramı münasibətilə Şahbuz şəhərində yerləşən Ahıllar Evində bayram tədbiri keçirilib. Tədbiri giriş sözü ilə açan Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev, Ahıllar Evində sakinlərə yaradılan şəraitdən danışıb, əlamətdar günlərdə onlarla keçirilən görüşlərin artıq ənənə halını aldığını qeyd edib.



Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov isə çıxışında Ahıllar Evi sakinlərini Novruz bayramı münasibətilə təbrik edib, vurğulayıb ki, Ahıllar Evi ilə yanaşı, tənha yaşayan və hərəkət qabiliyyəti məhdud olan ahıllara evlərində də sosial xidmətlər göstərilir. Onlar vaxtaşırı həkim müayinəsindən keçirilir, müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmaları üçün səyyari xidmətlər göstərilir, respublikanın sanatoriya və pansionatlarına göndərişlər verilir.

Tədbirin davamında Naxçıvan Musiqi Kollecinin direktoru Məhəbbət Babayeva çıxış edərək bayram təbriklərini çatdırıb. Daha sonra Naxçıvan Musiqi Kollecinin instrumental ansamblı konsert proqramı ilə çıxış edib, sakinlərə bayram hədiyyələri təqdim olunub.

Ahıl vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## *"Dövlət qulluğunda fərqlənməyə görə"* medalının təqdimatı olub



Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 21 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin yaranmasının 104-cü ilinin tamam olması münasibətilə ədliyyə sahəsində yüksək xidmətlərinə görə bir qrup ədliyyə qulluqcusu təltif edilib. Həmin Sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Katibliyinin rəisi, ədliyyə müşaviri Elçin Qasımov "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

Martın 17-də "Dövlət qulluğunda fərqlənməyə görə" medalı və onun vəsiqəsinin təqdim edilməsi üçün Ədliyyə Nazirliyində tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, III dərəcəli dövlət ədliyyə müşaviri Daşqın Rəhimov çıxış edərək bildirib ki, bu gün Azərbaycan Respublikasında, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ədliyyə orqanlarının hərtərəfli inkişafına xüsusi diqqət göstərilir. Eyni zamanda ədliyyə qulluqçuları da hərtərəfli qayğı ilə əhatə olunub və onların sosial müdafiəsi gücləndirilib. Eləcə də xidmət apardıqları dövrdə ədliyyə işçilərinin əməyi yüksək qiymətləndirilib, xidmətdə fərqlənən əməkdaşlar mükafatlandırılıb.

Göstərilən yüksək diqqət və qayğıya görə nazirliyin kollektivi adından ölkə başçısı cənab İlham Əliyevə dərin minnətdarlığını bildirən nazir Daşqın Rəhimov, böyük hörmət və ehtiramla anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin yüksək amallarına daim sadiq qalaraq, Vətənimizin tərəqqisi naminə ölkə Prezidentinin ətrafında sıx birləşərək, var qüvvələri ilə çalışmaq əzmində olduqlarını bildirib. Dövlət səviyyəsində göstərilən etimadı doğrultmaq üçün əməkdaşların vəzifələrini vicdanla yerinə yetirəcəklərinə, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına əmin olduğunu qeyd edib.

Sonra nazir medal və vəsiqəni Elçin Qasımova təqdim edib, onu təbrik edərək işlərində uğurlar arzulayıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan şəhərində əmək yarmarkası olub



*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası mart ayının 17-də Naxçıvan şəhərində keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov və Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli bildiriblər ki, muxtar respublikamızda işaxtaran şəxslərin məşğulluqlarının təmin edilməsi, o cümlədən əmək bazarında rəqabətə davamlılığın artırılması, kadr potensialının yüksəldilməsi daim diqqət mərkəzindədir. Bu baxımdan gənclərlə yanaşı, xüsusi ixtisası və ya peşəsi olmayan, əmək qabiliyyətli şəxslərin məşğulluğunun təmin edilməsi də xüsusi əhəmiyyət daşıyır. Qeyd olunub ki, əmək yarmarkaları bu kateqoriyadan olan şəxslərin işlə təmin olunması istiqamətində vacib məşğulluq tədbirlərindən biridir.



Vurğulanıb ki, həmin tədbirlər arasında əmək yarmarkalarının əhəmiyyəti, keçən il ölkə üzrə 63 əmək yarmarkasının keçirildiyi, həmin tədbirlərdə işəgötürənlər tərəfindən 11 min vakansiyanın təqdim edildiyi qeyd olunub.

Həmçinin ötən dövrdə 60 min ailə üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatların yaradıldığı diqqətə çatdırılıb. Həmin aktiv məşğulluq tədbirlərinin, eləcə də əmək yarmarkalarının Naxçıvan Muxtar Respublikasını da əhatə etdiyi, ötən gün Naxçıvanda daha bir qrup şəxsə özünüməşğulluq proqramı üzrə aktivlər təqdim edildiyi bildirilib.

Əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 21-i özəl, 17-si dövlət olmaqla, 38 müəssisədən 350 boş iş yeri təqdim edilib. Yarmarkada 192 vətəndaş qeydiyyata alınıb.

Qeyd edək ki, 2023-cü il ərzində daha 8 əmək yarmarkası keçiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

## Dövlət Miqrasiya Xidmətinin yaradılmasının 16-cı ildönümü və miqrasiya orqanları işçilərinin peşə bayramı günü qeyd olunub



Kollektiv öncə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad edib. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin inzibati binasında davam etdirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev əlamətdar günün mahiyyətinə toxunaraq miqrasiya sahəsində dövlət siyasəti və bu istiqamətdə reallaşdırılan sistemli tədbirlər barədə məlumat verib. Bildirilib ki, ölkəmizdə milli təhlükəsizliyin, iqtisadi maraqların qorunması, miqrasiya proseslərinin idarə edilməsi və hərəkətliliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 19 mart tarixli Fərmanı ilə yaradılan Dövlət Miqrasiya Xidməti bu gün milli inkişaf strategiyasının reallaşdırılmasına, beynəlxalq imicin daha da artırılmasına, habelə təhlükəsizliyin və sabitliyin təmin olunmasına öz töhfəsini vermək əzmindədir. Ölkə başçısının 2010-cu il 17 mart tarixli Sərəncamı ilə hər il martın 19-u "Azərbaycan Respublikası miqrasiya orqanları işçilərinin peşə bayramı günü" kimi qeyd olunur.

Vurğulanıb ki, dahi şəxsiyyət Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikasında da ardıcıl şəkildə həyata keçirilməsi sosial-iqtisadi və mədəni tərəqqi baxımından yeni tarixi mərhələnin əsasının qoyulması ilə nəticələnməkdədir. Bu baxımdan da muxtar respublikada miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi və innovativ metodlarla tənzimlənməsi, vətəndaşlara göstərilən elektron xidmətlərin yüksək səviyyədə təşkili, vətəndaşla dövlət orqanı arasında şəffaflığın artırılması və əsas sahələrdən biri kimi kadr potensialının daha da gücləndirilməsi Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən ciddi nəzarətdə saxlanılır.

Dövlət Miqrasiya Xidməti görkəmli siyasi xadim, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü – "Heydər Əliyev İli"ndə də fəaliyyətini beynəlxalq standartlara uyğun qurmağa, ölkə Prezidentinin fərman və sərəncamlarını, tapşırıq və tövsiyələrini rəhbər tutaraq işini müasir tələblərə uyğun həyata keçirməyə, xalqa, dövlətə və dövlətçilik ənənələrinə sadiq qalmağa çalışacaqdır.

Sonda Dövlət Miqrasiya Xidmətinin yaradılmasının 16-cı ildönümü və miqrasiya orqanları işçilərinin peşə bayramı ilə əlaqədar bir qrup əməkdaş mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***



# NOVRUZ bayramınız mübarək



*Azərbaycan xalqının ən qədim bayramları içərisində Novruz öz həyatiliyi ilə daha çox seçilir, fərqlənir. Bu bayram bayramların özülü, bünövrəsi, baş tacı, zirvəsidir. Min illərboyu Novruz bayramı Azərbaycanda el şənliyi kimi geniş şəkildə qeyd olunur. Tədqiqatçılar Novruz bayramının neçə min il əvvəl yarandığını söyləyirlər. Bu onu göstərir ki, Novruzun izləri atəşpərəstlikdən əvvələ gedib çıxır. Müasir dövrümüzdə isə bu böyük el şənliyi Azərbaycanın hər bir bölgəsində daha təmtəraqlı qeyd olunur.*

## Novruz bizim ən qədim milli bayramımızdır



*"Novruz gəlir", rəssam Cavid İsmayılov*

70 il hökm sürən sovet quruluşu dövründə Novruza "dini bayram" damğası vurulmasını, bu bayramın keçirilməsinin yasaq edilməsini yaşlı və orta nəsil yaxşı xatırlayır. Bu qadağaya baxmayaraq, ötən əsrin 70-80-ci illərində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi nüfuzu sayəsində Novruz bayramı ölkəmizdə geniş qeyd olunurdu. Bu Ulu Öndərin doğma Vətəninə, onun qədim, zəngin tarixinə, dünyəvi mədəniyyətinə, milli adət-ənənələrinə tükənməz məhəbbətinin əyani təzahürü idi.

Görkəmli dövlət xadimi Heydər Əliyev çıxışlarının birində bu bayram barədə demişdir: ***"Novruz bizim ən qədim milli bayramımızdır. O, xalq bayramıdır. Xalqımız çoxəsrlik tarixində böyük sınaqlardan keçibdir. Tariximizin ağır, çətin dövrləri olubdur. İnsanlar ağır günlər yaşayıblar. Ancaq bunlara baxmayaraq, heç kəs heç vaxt unutmayıb. Əksinə, Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə də onlarda xoş, nikbin əhvali-ruhiyyə yaradıbdır. Buna görə də bu bayram hər bir azərbaycanlı üçün əziz bayramdır. Eyni zamanda hər bir şəxsin qəlbinin bayramıdır, hər bir ailənin bayramıdır".***

Xalqımızın ən əziz bayramına belə yüksək münasibətin ifadəsini Ulu Öndər Heydər Əliyevin bütün həyatı və siyasi fəaliyyəti dövründə görürük. Bunun bariz təzahürüdür ki, Ümummilli Liderimizin ölkədə siyasi hakimiyyətə yenidən qayıdışından sonra Novruz bayramı milli dövlət bayramı səviyyəsinə yüksəldilmişdir. Novruzun milli taleyimizdəki yerini, ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olduğunu, müstəqillik əldə etmiş gənc Azərbaycan Respublikasının dövlət quruculuğundakı məramını, bir xalq, millət və dövlət kimi milli dirçəlişimizdəki rolunu yüksək dəyərləndirən görkəmli dövlət xadimi Heydər Əliyev Novruz bayramının ölkəmizdə yüksək əhval-ruhiyyədə qeyd olunması üçün lazımi tədbirlər həyata keçirmişdir. Novruzun taleyini Vətənin taleyi ilə eyniləşdirən xalqımızın böyük oğlu sevinclə bildirirdi ki, indi Novruz Azərbaycanın dövlət bayramıdır. Lakin bu, digər dövlət bayramlarından ona görə seçilir ki, Novruz təbiətdən gəlmiş bayramdır, eyni zamanda özünün maddi vəziyyətindən asılı olmayaraq, hər bir insan onu qeyd edir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin bayram münasibətilə Azərbaycan xalqına təbrikləri Novruzun ruhundan doğurdu, ona görə də xalqın ürəyindən xəbər verirdi. Ölkədəki ictimai-siyasi durumu, adamların rifah halını, ümumiyyətlə, dövlət quruculuğu prosesini Novruz adətləri ilə bağlayan Ulu Öndərimiz Novruz bayramının ümumxalq bayramına çevrilməsi, ölkənin hər bir guşəsində bu əziz günün əmin-amanlıq şəraitində, zəngin süfrə ilə qeyd olunması üçün ictimai-siyasi sabitliyi möhkəmləndirməyə, ölkə iqtisadiyyatının dinamik inkişafını təmin etməyə çalışırdı.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli dövlət xadiminin layiqli varisi kimi Ümummilli Liderin bu istiqamətdə müəyyənləşdirdiyi siyasətə sadiq qalaraq Novruzun yüksək səviyyədə qeyd olunması üçün lazımi tədbirləri həyata keçirir. Artıq bu bayramın 30 il işğal altında qalmış doğma Qarabağımızda da qeyd olunması dövlət başçısının xalqımızın milli dəyərlərinə böyük ehtiramın, cavabdehlik hissinin ifadəsidir. Böyük Tarixi Qələbədən bir neçə ay sonra – 2021-ci il mart ayının 20-də xalqa müraciət edən Prezident cənab İlham Əliyev müraciətində vurğulayıb ki, biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik: ***"Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi..."***



Novruz milli dəyərlərin, mahiyyəti etibarilə milli varlığın qorunma vasitəsidir. Bu yanaşma Azərbaycan dövlətinin artıq bütün dünyada böyük əks-səda verən mədəniyyət siyasətinin əsasını təşkil edir. Bu gün qürur hissi keçiririk ki, Ümummilli Liderimizin böyük səyləri ilə rəsmi dövlət bayramı – əbədi yaşamaq hüququ qazanmış Novruz bayramı artıq dünyada tanınmaqdadır. 2009-cu ildə Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin yekun qərarına əsasən Novruz bayramının Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilməsi Azərbaycanın milli siyasətində Novruzun milli özünütəşkil və yaşatma mexanizmi kimi nə qədər böyük gücə malik olduğunun parlaq sübutudur.

BMT tərəfindən martın 21-nin Beynəlxalq Novruz Günü elan edilməsi, Azərbaycanın təşəbbüsü ilə BMT-nin Baş Məclisində 2010-cu il fevralın 23-də Beynəlxalq Novruz Günü adlı qətnamə layihəsinin qəbul olunması hər bir azərbaycanlının fəxarət mənbəyidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin respublikamıza rəhbərliyi dövründə ölkəmizin daha sürətli və davamlı inkişafı təmin olunmuş, ictimai-siyasi sabitlik möhkəmləndirilmiş, Azərbaycan Cənubi Qafqazın aparıcı dövlətinə çevrilmişdir. Bütün bu uğurları vətəndaşlarımız öz gündəlik həyatında qabarıq hiss edir, gələcəyə böyük ümid bəsləyirlər. Xalqımız builki Novruz bayramını məhz belə bir yüksək ovqatla qarşılayır. Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə nəzər saldıqda dövlət başçısının milli dəyərlərimizə son dərəcə diqqətlə yanaşdığının, mədəniyyətimizin inkişafına xidmət edən lazımi tədbirlər həyata keçirdiyinin şahidi oluruq. Bu, ölkə başçısının Ulu Öndərin siyasi kursunun layiqli davamçısı kimi həm də mədəni-mənəvi irsimizə bağlılığından xəbər verir. Dövlət başçısı Novruzu hər bir azərbaycanlının daxili aləmində ən ülvi niyyətlərin və saf duyğuların yer tutduğu bayram kimi qiymətləndirir: ***"Novruz bayramı ulu əcdadlarımızın bizə gözəl yadigarıdır. Azərbaycan torpağında bu bayram çox qədim zamanlardan əsl milli bayram kimi qeyd olunmuşdur. Xalqımız yazın gəlişini ilaxır çərşənbələrdən Novruz axşamınadək kütləvi şənlik və mərasimlərlə qarşılamış, təbiətin canlanması ilə başlayan hər yeni ilin firavanlıq, xoşbəxtlik və əmin-amanlıq gətirməsini arzulamışdır. Novruz bayramı Azərbaycan xalqının gələcəyə inam hissini, ürəkaçıqlığını, qonaqsevərliyini, ünsiyyət, mehribançılıq və dostluq duyğularını özündə toplamışdır. Hər kəsin layiqincə qarşılamağa çalışdığı bahar bayramında insanın fikri, əməli və istəyi təzələnir, könüllərdə saf duyğular oyanır. Dünya haqqında ilkin təsəvvürlərlə bağlı olan bu bayram mənəvi gözəlliyi, mərhəməti və xeyirxahlığı təcəssüm etdirir".***





Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da Novruz xüsusi şövqlə keçirilir. Bu qədim diyarda Novruzla bağlı özünəməxsus adət-ənənələr formalaşmışdır.

Əvvəlcə onu qeyd edək ki, Naxçıvanda Novruza qədər, daha dəqiq desək, martın 21-dən əvvəlki 4 çərşənbə günü bayrama hazırlıq mərhələləri kimi qeyd edilir. Novruz bayramından əvvəl qışın ilk vaxtlarından başlayaraq qırx gün müddətində Böyük çillə, ondan sonrakı 20 gündə isə Kiçik çillə davam edir.

Xalq təqviminə görə, Kiçik çillə fevral ayının 19-u öz ömrünü başa vurub yerini Boz aya verir. Boz ay xalq arasında həm də "alaçalpov", "çilləbeçə", "ağlar-gülər" və sair adlarla bilinməkdədir. Boz ay Kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə – martın 21-nə qədər olan dövrü əhatə edir. Ayın adının bu cür adlanması onun buludlu, yağışlı, küləkli, bəzən günəşli, bir sözlə, dəyişkən olması ilə bağlıdır. Xalq arasında Boz ay haqqında bir deyim var: "Boz ay bozara-bozara keçər".



Bu daha çox Boz ayın sərtliyi və havaların bozarmasına işarədir. Kiçik çillə ilə Novruz arasındakı Boz ay qışdan yaza keçid dövrünü əks etdirir. Xalq arasında Boz aya "bayram ayı" da deyilməkdədir. Müxtəlif adlarla bilinən Boz ayın dörd çərşənbəsi çillə çıxarmanı əhatə edir. Azərbaycanın ən qədim yaşayış məskəni olan Naxçıvanda çərşənbələr Su, Od, Yel, Torpaq ardıcıllığı ilə keçirilir.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, ölkəmizin digər bölgələrindən fərqli olaraq muxtar respublikanın Ordubad rayonunda Novruz bayramı ərəfəsində özünəməxsus mərasimlər icra edilir. Ordubadda yaşadılan Novruz mərasimlərindən biri də "Xanbəzəmə"dir. Bir nəfəri Xan seçib başına tac qoyurlar. Meydanda hündür bir taxt düzəldib Xanı orada oturdurlar. İki nəfər balaca uşaq Xanı yelpikləyir.

Qız-gəlinlər, qonaqlar meydan dövrəsinə düzülüb tamaşa edirlər. Xanın yanına bəzənmiş xonçalar, səmənilər düzürlər. Xan əmr verir, hamı çalıb-oynayır. Hərə öz qabiliyyətini göstərir. Burada Cəllad və Təlxək də olur. Hamı Xanı güldürməyə çalışır. Xan isə gülməməlidir. Əgər gülsə, onu suya basırlar, təzə Xan seçirlər.

Digər bir mərasim isə rayonun ucqar kəndi Tividə yaşadılır. Bu, at sürənlərin yarışıdır. Yarışda başlanğıcdan müəyyən edilmiş məsafəyə qədər kim ilk çatarsa, o, qalib sayılır və mükafatlandırılır. Ordubadlıların səməni horrası bişirməsi də bu bölgədə Novruzun yüksək təmtəraqla keçirilməsini göstərir.

Bu gün hamımız Novruz bayramına dövlətin verdiyi dəyər və önəmi doğru-düzgün qiymətləndirməli, ona milli dövlət quruculuğumuzda hər bir vətəndaşın yaxından iştirakı üçün verilmiş milli quruculuq töhfəsi kimi yanaşmalıyıq. Çünki xalqımızın mənəvi mədəniyyətinin öyrənilməsində, qədim mifik görüşlərindən tutmuş adət-ənənəsi, həyat tərzi haqqında aydın təsəvvürlər əldə edilməsində Novruz bayramının rolu çox böyükdür. Bu rolu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yüksək dəyərləndirir. Ölkə rəhbəri bayramın layiq olduğu səviyyədə keçirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirir, hər il Novruz bayramı ərəfəsində Azərbaycan xalqını təbrik edir, hər birimizə uğurlar arzulamaqla Novruzun mahiyyətini ən kiçik detalları ilə ortaya qoyur: ***"Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkkülündə müstəsna əhəmiyyətə malikdir... O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq iyirmi beşinci baharını yaşayan Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Sivilizasiyaların qovuşuğundakı multikultural mühiti ölkəmizin müxtəlif mədəniyyətlərə mənsub insanlarını daim ünsiyyətə çağıraraq xoş münasibətlər bərqərar etmiş və dostluq, qardaşlıq əlaqələrini daha da gücləndirmiş Novruz bayramında tolerantlığın həqiqi təntənəsi vardır. Bahar bayramının ali bəşəri duyğuların daşıyıcısı olaraq UNESCO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur".***

**"Şərq qapısı"**

## Ali təhsil ocağında Novruz şənliyi



*Novruz qədim zamanlardan bu günə qədər yaşadılan ən gözəl bayramlarımızdan biridir. Birlik, bərabərlik, qardaşlıq bayramı olan Novruz Naxçıvan Müəllimlər İnstitutunda təmtəraqla, özünəməxsus gözəlliklə qeyd olunub.*

Əvvəlcə institutun professor-müəllim heyəti və tələbələri Novruz tonqalını alovlandırıb, oğlanlar və qızlar tonqal ətrafında rəqs ediblər. Tədbir iştirakçıları xalqımızın əsrlərboyu qoruyub-saxladığı mənəvi dəyərlərini, adət-ənənələrini ifadə edən, milli mətbəximizin və geyimlərimizin, xalq yaradıcılığının, el sənətkarlığının gözəl nümunələrinə və istedadlı gənclərin hazırladığı təsviri incəsənət əsərlərindən ibarət sərgiyə baxış keçiriblər.

Daha sonra Novruz bayramına həsr olunan musiqili proqram başlayıb. Tələbələr bir-birindən maraqlı və rəngarəng çıxışlar edib, Novruzun personajları Kosa və Keçəl məzəli zarafatları ilə tədbir iştirakçılarına xoş əhvali-ruhiyyə bəxş ediblər.

İfa olunan bayram şeirləri, rəqslər, rəngarəng mahnılar tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Oğuz elinin Novruz bayramı
## *İndi bu bayramı böyük qürurla qeyd edirik*

*Novruz tarixin dərin köklərinə və zəngin mədəniyyətə sahib olan Azərbaycan xalqının keçmişdən bu günümüzədək miras olaraq daşıyıb gətirdiyi milli dəyərlər sistemində kimliyimizi özündə yaşadan bir bayramdır. Əcdadlarımızdan bizə miras qalmış bu bayramda adət-ənənələrimizə sanki daha da möhkəm köklənir, onu yenidən yaşayırıq.*

Bu bayramda ağsaqqal və ağbirçəklər, xəstələr, kimsəsizlər ziyarət olunar, insanlar ən gözəl diləklərini bir-birinə ünvanlayarlar. Qız-gəlinlərə pay tutularaq al-əlvan bəzədilmiş xonçalar, xınalı əllərdə göz oxşayar. Milli mətbəx nümunələrimiz də bu bayramın ayrılmaz bir hissəsinə çevrilərək süfrələrimizi bəzəyər. Hər kəsin evində, süfrələrin şahı olan bayram aşı bişirilər. Novruzda adətdəndir ki, hər kəs yeni paltar geyinib bayramlaşmaq üçün bir-birinə qonaq gedər.



Bayramın əsas atributlarından biri də yumurta boyamaqdır. İnanclara görə boyanmış yumurtalar dünyanı təmsil edir. Ağ, göy, yaşıl, qırmızı boyalı yumurtalar, adətən, ilin dörd fəsli kimi yozulur. Ana-bacılarımızın bişirdiyi qoğal Günəşin, şəkərbura Ayın, paxlava isə alovun və ulduzların rəmzi sayılır.



Novruzun ən əsas rəmzlərindən biri də yazın gəlişini, həmin il məhsuldarlığın necə olacağını özündə təcəssüm etdirən səmənidir. Ta qədim zamanlardan insanlar səməni cücərtməklə bərəkət, bolluq arzulayar və bayramdan sonra həmin səməniləri axar suya buraxardılar. Bayramın ən əsas adətlərindən biri də budur ki, hər kəs bayramdan öncə dünyasını dəyişmiş əzizlərinin məzarını ziyarət edər, bayram günü isə el ağsaqqalları bir alma və ya boyanmış yumurta götürüb yas düşən evləri ziyarət edərək insanların könüllərini şad edərlər.

Novruz adət-ənənələri çox zəngindir. Bu ənənələr əsrlərboyu yaşadılaraq bu günümüzə gəlib çıxmışdır. Sirr deyil ki, 70 illik sovetlər birliyi dövründə digər ənənələr kimi Novruz adət-ənənələri də böyük çətinliklərlə üz-üzə qalmışdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideologiya üzrə katibi, dəyərli ziyalı, dramaturq Şıxəli Qurbanov bu bayramın keçirilməsi üçün qətiyyətli təşəbbüs göstərərək istədiyinə müvəffəq olur. 1967-ci ildə o, bayramın Novruz adı ilə yox, Bahar bayramı kimi keçirilməsini təşkil edir. Hətta həmin dövrdə Mərkəzi Komitənin birinci katibi Vəli Axundov da Şıxəli Qurbanovu təhlükəli iş gördüyü barədə xəbərdarlıq edir, amma o, geri çəkilmir. Düşünülmüş şəkildə tərtib olunmuş Novruz bayramı şənlikləri Azərbaycanın bütün bölgələrində, xüsusən Bakı şəhərində ümumxalq şənliyi səviyyəsində təşkil edilir. Təbii ki, Azərbaycanda Novruzun yüksək səviyyədə qeyd olunması Moskvada da böyük həyəcanla qarşılanır. Ona görə də dərhal Şıxəli Qurbanov Moskvaya çağırılaraq ondan Novruzla bağlı izahat tələb olunur. O, Moskvaya gedəndə həbsə alınacağını və ya ən azından işdən azad ediləcəyini gözləyir. Lakin Moskvada 22 vərəqdən ibarət izahat yazır və özü alim olduğu üçün Novruz bayramının dini bayram olmadığını sübut və dəlillərlə şərh edir. Nəhayət, izahat qəbul olunur. Hətta Şıxəli Qurbanov həm də yaxın dostu olan tanınmış şərqşünas İosif Samuiloviç Braginskiyə də müraciət edir ki, Novruz bayramının dinlə əlaqəsi olmadığını geniş və əsaslı surətdə öz məqaləsində əks etdirsin. Həqiqətən də, belə bir məqalə "Pravda" qəzetində çap olunur. Bir qədər sonra həmin yazı Azərbaycan dilində 20 may 1967-ci il tarixli "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilir. Məqalə dərc edildikdən sonra Şıxəli Qurbanov deyir: "Novruz pasport aldı".

1969-cu ildə Azərbaycanda rəhbərliyə gələn Ulu Öndər Heydər Əliyev isə bir çox sahələr kimi milli mədəni irsimizin qorunması və yaşadılması sahəsində də böyük addımlar atır. Novuz bayramı bütün bölgələrimizdə layiqincə qeyd olunur.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdışından sonra Novruz bayramının artıq dövlət səviyyəsində qeyd edilməsinə başlanıldı və qısa müddətdə dünya azərbaycanlılarının milli bayramına çevrildi. Eyni zamanda Ulu Öndər 1994-cü ilin yazından başlayaraq hər il Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik etdi, ümumxalq şənliklərinə qatılaraq xalqımıza ikiqat sevinc yaşatdı, ölkə vətəndaşlarına Vətənin çiçəklənməsi naminə birlik, həmrəylik, saflıq və təmizlik arzuladı.

Ümummilli Liderin Azərbaycançılıq ideyaları bu gün ölkəmizdə uğurla davam etdirilir. Milli və mənəvi dəyərlərimizə hərtərəfli dövlət qayğısı göstərilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, Azərbaycanın Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində Novruz bayramı 2009-cu ildə UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edilib. 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında 21 mart tarixi Beynəlxalq Novruz Günü elan edilib.

Bu gün Novruzu hər birimiz qürur hissi ilə qeyd edirik. Uzun illər idi ki, Novruz bayramını Şuşada, Qarabağda keçirmək arzusunda idik. Artıq üç ildir ki, arzularımız çin olub. Elə çin olmuş arzuların qələbə sevinci ilə 2021-ci ildə Ali Baş Komandan cənab İlham Əliyev xalqımıza bayram təbrikini və xoş arzularını Şuşadakı Cıdır düzündə qalanmış bayram tonqalının önündən çatdıraraq bu cür böyük tarixi hadisənin əhəmiyyətindən söz açdı. Bu isə heç də təsadüfi deyildi, Novruza həsrət torpaqlarımızda bundan sonra əbədi qeyd edəcəyimiz bayramın ilk müjdəsi idi. Və artıq biz Novruzu üçrəngli bayrağımızın dalğalandığı bütün bölgələrimizdə qeyd edirik. Qoy bu Novruzda çatdığımız tonqalımız daha da alovlansın, el-obamıza əmin-amanlıq, toy-büsat gətirsin. Qoy düşmən də bilsin ki, Oğuz yurdunun ocağı gur yanır!

**Aidə İBRAHİMOVA**

# Beynəlxalq Poeziya Günü münasibətilə tədbir keçirilib

*Martın 17-də Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Beynəlxalq Poeziya Günü münasibətilə tədbir keçirilib.*



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi aparatının baş məsləhətçisi Aygün Heydərli tədbiri giriş sözü ilə açaraq Beynəlxalq Poeziya Gününün tarixindən danışıb.

Qeyd olunub ki, ədəbiyyatın ən böyük amalını və tarixi missiyasını mənsub olduğu xalqa xidmətdə görən xalqımızın Ümummilli Lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycan ədəbiyyatının inkişafına çalışmış, yaradıcı ziyalıları himayə etmiş, sağlam ədəbi mühitin yaradılmasını əsas vəzifələr sırasına çəkmişdir. Ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndərin rəhbərliyi ilə milli dəyərlərimizə qayğı, adət-ənənələrimizin qorunub yaşadılması, mədəniyyətimizin və incəsənətimizin inkişafı istiqamətində həyata keçirilən tədbirlər ədəbiyyatımızın, eləcə də poeziyamızın yeni çalar qazanmasına səbəb olmuşdur. Bu dövrdə repressiya qurbanlarının əsərlərinə ikinci həyat verilmiş, Azərbaycan ədəbiyyatının qorunması və təbliği məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Vurğulanıb ki, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident cənab İlham Əliyev də Azərbaycan ədəbiyyatının inkişafına, ədiblərin yaradıcılıq uğurlarının daha da artmasına xüsusi diqqət və qayğı göstərir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev "Dünyanın söz xəzinəzi günü", Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova, "21 mart – Beynəlxalq Poeziya Günüdür" mövzusunda çıxış ediblər.

Sonda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının aktrisası Şölə Novruzbəylinin və şairlərin ifasında poeziya nümunələrinin bədii qiraəti olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***



# Asların yadigarı – *Araz*

*Arazı ayırdılar*
*Lil ilə doyurdular.*
*Mən səndən ayrılmazdım*
*Zülm ilə ayırdılar.*

Ah Araz, ah... Adına şeirlər yazılan, ləqəblər götürülən, qəlbi yaralı Araz. Nə biləydin bəxtinə iki doğmanın arasında durmaq yazılacaq?! Qəlbi sevgiylə vuran, eşqi ümman, ürəyi məhəbbətlə çağlayan gələcək taleyindən xəbərsiz, yaralı Arazım... Sənə nələr elədilər? İki tərəfini ayırıb, qan və torpaqla doldurdular. Əslində, bu iki tərəf bir-birini sevən iki sevgili kimidir və heç ayrılmaq istəmədikləri halda araya girənlər bu iki sevgilini zorla ayırıblar.

Xan Arazın ikiyə bölünməsi XIX əsrin əvvəllərinə təsadüf edir. İran Çar Rusiyasındakı daxili qarışıqlıqdan istifadə edərək Bakıya qədər irəlilədi. Rusiya iranlıların hücumunu dəf etdi və 1928-ci il fevralın 10-da Təbrizin cənubunda Türkmənçay müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən rus ordusu Cənubi Azərbaycandan çəkildi. İmzalanan müqavilə nəticəsində Araz çayı Azərbaycanı iki yerə böldü. İnsanlar bu vəziyyəti zorla ayrılan iki sevgiliyə bənzətdilər. Sevgililəri, yəni Şimali və Cənubi Azərbaycanı zorla ayırdılar. Bəli, iki doğmanı bir-birindən İranla Rusiya ayırdı. Bu ayrılıqdan kədərlənən azərbaycanlılar qovuşacağı günü həsrət və səbirsizliklə daim gözlədilər... Düşünürük ki, məhz elə bu məqamda "Araz" toponiminin mənşəyinin haradan gəldiyini öyrənmək yerinə düşür.

Araz çayının adı antik dövrdən başlayaraq ən müxtəlif dilli qaynaqlarda dəfələrlə çəkilmiş və bu çay barədə məlumatlar verilmişdir. Tədqiqatlardan da məlumdur ki, tarix boyunca dünyanın müxtəlif yerlərində Araz adlı çaylar barədə məlumatlara rast gəlinir. Naxçıvan ərazisindən axıb keçən Araz çayının adına mənbələrdə "Araz", "Atrapatakan", "Araks", "Arras", "Əras", "Uveys" və sair formalarda rast gəlinir. Bu toponimlə bağlı müxtəlif semantik mənalar irəli sürülmüşdür. Bəzi kitablarda çayın adının yunan dilində arosso ("guruldayıram"), zənd dilində arvat ("qaçan"), ərəb dilində ruz ("qaçmaq") sözləri ilə izah edilir. Görkəmli dilçi alimlərimizdən Ağamusa Axundov bu toponimi qədim əfsanələrdə xatırlanan "Ras" toponimi ilə bağlamış və onu antroponim hesab etmişdir. Tanınmış alim Mirəli Seyidov Arazı sağ/arsaq tayfaları ilə bağlamış və etnohidronim hesab etmişdir. Nəbi Nəbiyev şumercə "dağıdan çay", ərəbcə "axan, qaçan", yunanca "səs-küylü" mənalarında hidronimin izahını verməyə çalışmışdır. AMEA-nın müxbir üzvü Vəli Əliyev eramızdan əvvəl III minilliyə aid Het kitabələrində qeyd edilən Harras/Harasın Araz çayının adı olduğu fikrini irəli sürmüş və "har"ın hetcədə "çay" demək olduğunu göstəmişdir. Tofiq Hacıyev tədqiqatlarında Araz çayının az/uz etnoslarının şərəfinə bu cür adlandırılması qənaətini irəli sürmüşdür. N.Əsgərov da "Araz" toponimini etnonim səciyyəli hesab etmiş bu sözün "az/as tayfalarına məxsus su" mənasında olduğunu göstərmişdir. Bir sıra digər tədqiqatçılar da Araz sözünü as tayfaları ilə əlaqələndirmiş və sözün mənasını "as ərləri" kimi izah etmişlər. Ehtimal edilir ki, çayın adı eramızdan əvvəl III minilliyin sonu, II minilliyin əvvəllərində tarix səhnəsinə çıxmış as boylarının adı ilə bağlıdır.

Araz çayının struktur-semantik təhlili zamanı bu adın tərkibində iki komponentə rast gələ bilirik: ar+as. Ar//ər//ir//ır bizə qədərki tədqiqatçıların yazdığına görə, türk dillərində igid, kişi mənasındadır, az/uz/as isə türk tayfalarından birini və ya ilk oğuzları bildirir. Düşünürük ki, birinci komponentdə fonetik səsdəyişmə hadisəsi ə~a əvəzlənməsindən başqa, həm də e~a və ya ye ~a şəklində də ola bilər. Başqa sözlə desək, "Əras"ın fonetik dəyişikliklər nəticəsində Araza çevrilməsi mümkün olduğu kimi, Eras/Yerasın Araza çevrilməsi də mümkündür. Heç də təsadüfi deyildir ki, Araz adının Erasx formasına bəzi qaynaqlarda rast gəlinir. Bu halda sözdəki birinci komponent er/yer daha qədim formada ifadə etsək "ur" şumer dilində məskən/şəhər mənasını verir. Araz/Eras "asların şəhəri, məskəni" mənasındadır. Araz çayı məhz as tayfalarının məskun olduğu ərazilərdən keçdiyi üçün çay bu şəkildə adlandırılmışdır. Başqa cür ifadə etsək, etnonim əsasında yaranmış oykonimin hidronimləşməsi baş vermişdir.

Bəli, Naxçıvan ərazisindən axıb keçən Araz çayı tarixən regionun su təminatında əhəmiyyətli rol oynamışdır. Lakin bununla belə yenə də regionu – bütün tarixi Naxçıvan ərazisini su ehtiyatları ilə bu çayın tam təmin edə bildiyini söyləmək olmaz. Məhz bu baxımdan bölgədə su həyatın mənbəyi, dirilik rəmzi kimi ciddi əhəmiyyətə malik olmuşdur. Tarixin müxtəlif dövrlərində Naxçıvan ərazisində ayrı-ayrı tayfaların qüdrəti təkcə onların məskunlaşdığı ərazilərin genişliyi və böyüklüyü ilə deyil, həm də su ehtiyatları ilə zənginliyi və su ehtiyatlarına nəzarətinin dərəcəsi ilə müəyyənləşmişdir.

Sonda onu qeyd etmək yerinə düşər ki, toponimləri hər zaman tədqiq edib öyrənməliyik ki, sonra mənfur qonşularımız bizim qədim tarixi saxtalaşdırıb, təhrif edib öz adlarına çıxmasınlar. Unutmamalıyıq ki, toponimlər bizim tariximizdir!

**Aysel EMİNOVA**
***AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Onomastika şöbəsinin əməkdaşı***

***İtmişdir***

Naxçıvan şəhər sakini Əsgərzadə İlham Karlen oğlunun adına verilmiş 0200029902 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 208